**UOT 32**
**https://doi.org/10.30546/ifs.2024.2(43).028**

# “BÖYÜK QAYIDIŞ” TİMSALINDA AZƏRBAYCANDA BƏRPA PROSESİNİN DİGƏR ÖLKƏ TƏCRÜBƏLƏRİNDƏN FƏRQLƏNMƏSİ

**Rauf Abbasov**
Doktorant, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
rauf-abbasov-2009@mail.ru
https://orcid.org 0009–0006–4553–8922

**Xülasə.** Məqalə münaqişədən sonra yenidənqurma prosesinin önəmini və Azərbaycanın bu məsələdəki özünəməxsus yerini göstərərək digər ölkələrdəki yenidənqurma prosesləri ilə Qarabağdakı fərqləri müqayisə edir. Bu müqayisədə Azərbaycanın enerji resurslarına çıxışının olması və münaqişə dinamikasının gedişatının digər ölkələrdəkindən fərqli olması qeyd olunur və bu prosesin hər ölkədə ayrı olduğunu və müxtəlif mədəni, siyasi, iqtisadi və coğrafi amillərin prosesə təsir etdiyini vurğulayır.

**Məqsəd.** Əsas məqsəd Qarabağda yenidənqurma prosesinin aparılmasında vacib rol oynayan amillərin təhlili və digər ölkələrlə müqayisədə fərqliliklərin yaranmasına gətirib çıxaran təsirlərin araşdırılmasıdır.

**Metodologiya.** Araşdırmanın aparılmasında kontent təhlil, analiz, sintez, induksiya, deduksiya metodlarından istifadə edilmişdir.

**Elmi yenilik.** Məqalə, xüsusilə Azərbaycanda bundan əvvəl aparılmamış bu kimi araşdırmaların az işlənmiş olduğunu vurğulayaraq, yenidənqurma prosesinin öyrənilməsinə əhəmiyyətli töhfə verir.

**Açar sözlər**: Yenidənqurma prosesi, müharibə, münaqişə, Azərbaycan, Qarabağ, xüsusiyyət, inkişaf.

# ОТЛИЧИЕ ПРОЦЕССА РЕКОНСТРУКЦИИ В АЗЕРБАЙДЖАНЕ В ПРЕДСТАВЛЕНИИ «ВЕЛИКОГО ВОЗВРАЩЕНИЯ» ОТ ОПЫТА ДРУГИХ СТРАН

**Рауф Аббасов**

**Резюме.** В статье показывается важность процесса постконфликтного восстановления территорий и уникальное место Азербайджана в этом вопросе, а также сравниваются различия между Азербайджаном и процессами восстановления территорий в других странах. В этом сравнении учитывается социально-экономический и природно-ресурсный потенциал Азербайджана, различие динамики развития конфликта в каждой стране, влияние разных культурных, политических, экономических и географических факторов.

**Цель:** проанализировать факторы, играющие ключевую роль в процессе восстановления территорий в Азербайджане; изучить эффекты, приводящие к возникновению различий по сравнению с другими странами.

**Методология: в** исследовании использовались методы контент-анализа, анализа, синтеза, индукции, дедукции.

**Научная новизна:** статья вносит значительный вклад в изучение процесса реконструкции, подчеркивая, что такие исследования в Азербайджане развиты недостаточно.

**Ключевые слова:** процесс реконструкции, война, конфликт, Азербайджан, Карабах, характеристика, развитие

# THE DIFFERENCE OF THE RECONSTRUCTION PROCESS IN AZERBAIJAN FROM THE EXPERIENCES OF OTHER COUNTRIES IN THE EXAMPLE OF THE "GREAT RETURN"

**Rauf Abbasov**

**Abstract.** The article shows the importance of the post-conflict reconstruction process and unique place of Azerbaijan in this issue, and compares the differences between Azerbaijan and the reconstruction processes in other countries. In this comparison, it has been noted that Azerbaijan has access to energy resources and the course of conflict dynamics is different, and it has been emphasized that this process is different in every country and various cultural, political, economic and geographical factors affect the process.

**Purpose.** The main goal is to analyze the factors that play a key role in the reconstruction process in Azerbaijan and to investigate the effects that lead to the emergence of differences compared to other countries.

**Methodology.** Content analysis, analysis, synthesis, induction, deduction methods were used in the research.

**Scientific Novelty.** The article makes a significant contribution to the study of the reconstruction process, emphasizing that the studies, which have not been conducted before in Azerbaijan, have been underdeveloped.

**Keywords:** Reconstruction process, war, conflict, Azerbaijan, Karabakh, characteristics, development.

## Giriş

Münaqişədən sonra yenidənqurma prosesləri müharibə nəticəsində həmin ərazidə dağıdılmış və ya əsaslı zərbələr almış infrastrukturun, sülh və təhlükəsizliyin möhkəmlənməsinə və davamlı sosial-iqtisadi inkişafın əldə edilməsinə yönəldilir. Dünya ölkələrinin təcrübəsində yenidənqurma prosesinin hədəfi bəzən şəraitin ya müharibədən əvvəlki səviyyəyə çatdırılması olur, ya da müharibədən əvvəlki səviyyədən də daha əsaslı və hərtərəfli işlərin görülməsinə istiqamətlənir.

## Əsas hissə

Münaqişədən sonra yenidənqurma geniş mənada hərbi (qanun və asayişin bərpası), siyasi (idarəetmə), iqtisadi (reabilitasiya və inkişaf) və sosial şəraitin (ədalət) eyni vaxtda yaxşılaşdırılması səylərini əhatə edən mürəkkəb, vahid və çoxölçülü proses kimi başa düşülür. Münaqişədən sonrakı yenidənqurmanın iqtisadi ölçüsü adətən yardımın bərabər bölüşdürülməsi, fiziki infrastrukturun və obyektlərin bərpası, sosial xidmətlərin bərpası, özəl sektorun inkişafı üçün müvafiq şəraitin yaradılması, makroiqtisadi sabitlik üçün mühüm struktur islahatların həyata keçirilməsi kimi vəzifələri əhatə edir.Yenidənqurma prosesinin nə dərəcədə əhəmiyyətli olması onun tarixinə nəzər saldıqda ilk baxışdan da aydın olur. Belə ki, yenidənqurma məsələsi 19-cu əsrdən bəri elmi dairələrin araşdırma mövzularından biri olmuşdur. Tarixdə ilk dəfə müharibədən sonra yenidənqurma səyləri beynəlxalq formada Birinci Dünya müharibəsi başa çatdıqdan sonra Avstriyada dünyanın qabaqcıl ölkələri tərəfindən müzakirə edilmiş və tədbirlər həyata keçirilmişdir və bu da onun nə dərəcədə ölkələr üçün əhəmiyyət daşıdığını bir daha göstərmişdir.

Böyük qayıdış ideyası Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, işğaldan azad olunmuş ərazilərdə yaşamış vətəndaşların doğma yurdlarına qayıtmasını təmin etmək məqsədini daşıyır. Bu proses təkcə fiziki qayıdış deyil, həm də milli kimliyin və mədəniyyətin dirçəlişi, sosial ədalət və iqtisadi inkişafın bərpasıdır. Bu baxımdan Azərbaycanın Böyük qayıdış ideologiyası yalnız yenidənqurma və bərpa deyil, həm də milli dəyərlərin, mədəni mirasın və milli həmrəyliyin qorunub saxlanmasını və inkişafını əhatə edir. Bu proses Azərbaycanın tarixi ədalətini bərpa etmək və xalqın öz torpağına sahib çıxmaq haqqını təmin etmək məqsədini güdür. “Böyük Qayıdış”ın fəlsəfəsi "torpaq insana məxsusdur" prinsipi üzərində qurulmuşdur. Bu fəlsəfə insanın doğulduğu, böyüdüyü və məskunlaşdığı ərazilərə bağlılığını vurğulayır və insanların öz doğma yurdlarına qayıtmaq haqqının pozulmaz olduğunu göstərir. Böyük qayıdış prosesində bu fəlsəfə mədəni, tarixi və sosial

dəyərlərin bərpasını, itirilmiş vətən hissinin yenidən qazanılmasını və bu torpaqlarda yenidən həyatın qurulmasını özündə əks etdirir. Bu fəlsəfə eyni zamanda beynəlxalq hüququn və insan haqlarının tələblərinə uyğun olaraq, azad edilmiş ərazilərin bərpası və orada dayanıqlı həyatın yaradılmasını əsas məqsəd olaraq götürür.

Azərbaycan Prezidenti İlham Əliyevin Böyük qayıdış və yenidənqurma prosesləri ilə bağlı etdiyi çıxışlar və təsdiq etdiyi proqramlar xüsusi əhəmiyyət kəsb edir. Bu çıxışlar və proqramlar həm yenidənqurma prosesinin ideologiyasını və fəlsəfəsini, həm də Azərbaycanın bu istiqamətdəki konkret planlarını və məqsədlərini əks etdirir. Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə dair etdiyi çıxışlar Böyük qayıdış və yenidənqurma prosesinin əsas istiqamətlərini müəyyən edir. Onun çıxışlarında aşağıdakı məqamlar xüsusilə vurğulanır:

1.Ərazi bütövlüyü və suverenlik:

Prezident İlham Əliyev dəfələrlə vurğulamışdır ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilib və bu torpaqlar Azərbaycan xalqının mülkiyyətidir. O, çıxışlarında bu torpaqlara qayıdışın tarixi ədalətin bərpası olduğunu qeyd edir.

2.Yenidənqurma və inkişaf:

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı yenidənqurma və bərpa işlərinin həyata keçirildiyini və bu işlərin Azərbaycanın iqtisadi gücünün göstəricisi olduğunu vurğulayır. O, bu prosesin Azərbaycan üçün yeni iqtisadi və sosial imkanlar yaratdığını qeyd edir.

3.Qarabağın bərpası:

İlham Əliyev Qarabağ bölgəsinin tarixi, mədəni və iqtisadi əhəmiyyətini dəfələrlə vurğulamışdır. O, bu ərazilərdə tarixi abidələrin bərpası və müasir infrastrukturun yaradılmasının vacibliyini qeyd edir.

Prezident İlham Əliyev 2021-ci ilin iyul ayında "Böyük qayıdış" adlı Dövlət Proqramını təsdiq etdi. Bu proqramın əsas məqsədi işğaldan azad edilmiş ərazilərin bərpası və məskunlaşmanın təmin edilməsidir [2]. Proqramın əsas istiqamətləri bunlardır:

-İnfrastruktur layihələri: Azad edilmiş ərazilərdə yollar, elektrik, su və qaz təchizatı sistemlərinin qurulması, habelə yeni yaşayış məntəqələrinin və şəhərlərin inşası bu proqramın əsas hissəsini təşkil edir.

-İqtisadi inkişaf: Proqram çərçivəsində kənd təsərrüfatı, turizm, sənaye və digər iqtisadi sahələrin inkişafı üçün xüsusi layihələr nəzərdə tutulur. Bu, ərazilərin iqtisadi cəhətdən canlanmasına yönəlmiş tədbirlərdir.

-Sosial təminat və məskunlaşma: Azad edilmiş ərazilərə qayıdacaq vətəndaşların sosial təminatının yaxşılaşdırılması, təhsil, səhiyyə və digər sosial infrastrukturun yaradılması bu proqramın prioritetlərindən biridir.

Prezident İlham Əliyev dəfələrlə Zəngəzur Dəhlizinin əhəmiyyətini vurğulamışdır. Bu layihə təkcə Azərbaycanın iqtisadi inkişafına deyil, həm də regionun nəqliyyat və logistika sisteminə böyük töhfə verəcəkdir. Zəngəzur Dəhlizi “Böyük qayıdış” proqramının mühüm tərkib hissələrindən biri kimi, azad edilmiş ərazilərin beynəlxalq nəqliyyat şəbəkəsinə inteqrasiyasını təmin edəcək [3].

Prezident İlham Əliyev çıxışlarında Qarabağ və Şərqi Zəngəzur bölgələrinin "yaşıl enerji" zonasına çevriləcəyini dəfələrlə bildirmişdir [4]. Bu strategiya çərçivəsində azad edilmiş ərazilərdə alternativ enerji mənbələri ilə təmin olunmuş infrastruktur qurulması nəzərdə tutulur. Bu çıxışlar və proqramlar Azərbaycanın Böyük qayıdış prosesinin nə qədər kompleks və genişmiqyaslı olduğunu göstərir. Müharibədən sonra yenidənqurmanın geniş prinsipləri qlobal miqyasda tətbiq olunsa da, hər bir ölkənin yenidən qurulması prosesinin xüsusiyyətləri özünəməxsus tarixi, mədəni, siyasi və coğrafi amillərdən təsirlənir. Qarabağ timsalında yenidənqurma prosesinin aparılmasını sürətləndirən və fərqləndirən əsas əlamətlər aşağıdakılardan ibarətdir:

1. Geosiyasi kontekst:

Şərqi Avropa və Qərbi Asiyanın kəsişməsində yerləşən Azərbaycanın geosiyasi mövqeyi Qarabağın yenidən qurulması prosesinin formalaşmasında mühüm rol oynayır. Ölkənin qonşu dövlətlərlə və beynəlxalq aktorlarla əlaqələri yardım, əməkdaşlıq və regional sabitliyin dinamikasına təsir göstərir.

2. Tarixi və mədəni faktorlar:

Azərbaycanın rus, fars və əlbəttə ki, türk dünyası ünsürlərinin təsiri altında olan zəngin mədəni irsi yenidənqurma işlərinə mühüm təsir göstərir. Azərbaycandakı bir çox müxtəlif populyasiyaların zəngin tarixini və inkişafı yolunu göstərən Mədəni abidələrin qorunub saxlanılması və bərpası onların rekonstruksiyası işlərinin aparılmasında digər ölkələrlə görülən birgə əməkdaşlıq Qarabağdakı yenidənqurma prosesini fərqləndirən mühüm aspektlərdəndir. Buna misal olaraq, Qarabağda tarixi abidələrin əvvəlki görkəminə qayıtması üçün Avropadan alman mütəxəssis heyətinin dəvət edilməsi göstərilə bilər.

3. Etnik müxtəliflik:

Azərbaycan etnik müxtəlifliyi ilə səciyyələnir və əlbəttə, Qarabağda da Azərbaycanın müxtəlif hissələrində olduğu kimi, azərbaycanlılar, kürdlər, ruslar, gürcülər, ermənilər və digər başqa müxtəlif xalqlar yaşayır. Yenidənqurma səyləri bu müxtəlif kimliklərə həssaslıqla yanaşmalı, əhatəliliyi təmin etməli və tarixi yaşayış ənənələrini qorumalıdır , çünki dünyadakı bəzi ölkələrdə olduğu kimi, hər xalq oturaq həyat tərzini mənimsəməmiş, aralarından az da olsa, bəziləri köçəri həyat tərzini bugünədək qoruyub saxlamışdır.

4. İqtisadi asılılıq:

Azərbaycanın Xəzər dənizi sahilində olması onun iqtisadi dinamikasına öz töhfəsini verir. Yenidənqurma prosesi ölkənin iqtisadi strategiyaları, enerji investisiyaları və enerji sektorundan kənarda qalan digər iqtisadi impulsların şaxələndirilməsi səyləri ilə də sıx bağlıdır[5]. Yenidənqurma prosesinin hansı tezlikdə həyata keçirilməsi də məhz iqtisadiyyatın inkişaf səviyyəsindən əsaslı surətdə asılıdır, hətta dünyanın bir çox iqtisadçılarına görə, bu mənada ən birinci amil məhz iqtisadiyyatın gücüdür, digər amillər məhz 2-ci dərəcəli əhəmiyyət daşıyır[6]. Azərbaycanın iqtisadi strategiyaları və diversifikasiya planları onun yenidən qurulmasının tərkib hissəsidir. Münaqişədən təsirlənmiş ərazilərin reabilitasiyasını daha geniş iqtisadi inkişaf məqsədləri ilə balanslaşdırmaq ölkənin yenidən qurulması prioritetlərini formalaşdıran fərqli problemdir.

5. Beynəlxalq tərəfdaşlıqlar:

Azərbaycanın regional və qlobal aktorlarla, o cümlədən qonşu ölkələr, beynəlxalq təşkilatlar və donor dövlətlərlə tərəfdaşlığı Qarabağın yenidən qurulmasının formalaşmasında həlledici rol oynayır. Beynəlxalq ictimaiyyətdən alınan əməkdaşlıq və dəstək səviyyəsi yenidənqurma səylərinin həcminə və sürətinə təsir göstərir. Dünyanın istənilən ərazisində baş verən hər hansı bir yenidənqurma məsələsindən söhbət gedirsə, bu, eyni zamanda göstərilən beynəlxalq qurumların dəstəyindən də söhbət gedir deməkdir [7]. Dünya artıq sürətlə qloballaşmaqda və beynəlxalq təşkilat və qurumlarla daha da intensiv əlaqədə olmaqdadır. Bu mənada hətta Azərbaycan da digər ölkələrin yenidənqurma proseslərində fəal iştirak edir və öz geniş maddi dəstəyini də göstərir. Buna misal olaraq Afrika ölkələrində aparılan işlər göstərilə bilər.

6. Siyasi mənzərə:

Azərbaycandakı siyasi ab-hava və idarəetmə strukturları yenidənqurma prosesinə birbaşa təsir göstərir. Yenidənqurma təşəbbüslərinin uğuru üçün siyasi sabitlik, effektiv idarəçilik və siyasətlərin yenidənqurma məqsədləri ilə uyğunlaşdırılması həyati əhəmiyyət kəsb edir. Heç bir ölkədə siyasi çaxnaşma ola-ola yenidənqurmadan söhbət gedə bilməz.

7. Regional inteqrasiya:

Azərbaycanın Cənubi Qafqazda regional inteqrasiya və əməkdaşlıq istiqamətində səyləri Qarabağın yenidən qurulması prosesinə təsir göstərir. Qonşu ölkələrlə körpülərin qurulması və regional təşəbbüslərdə iştirak regionun daha geniş sabitliyinə və inkişafına töhfə verir.

8. Humanitar və sosial mülahizələr:

Azərbaycanda yenidənqurma prosesinin humanitar ölçüləri məcburi köçkünlərin ehtiyaclarının ödənilməsini, sosial xidmətlərin göstərilməsini və sosial birliyin gücləndirilməsini əhatə edir. Azərbaycanın özünəməxsus sosial quruluşu və demoqrafik xüsusiyyətləri bununla bağlı konkret çağırışları və prioritetləri formalaşdırır. Çünki Azərbaycanda humanitar dəstək, sadəcə, dövlət və qurumlar tərəfindən deyil, həm də insanların birgə səyləri nəticəsində xalq tərəfindən də yardıma ehtiyac duyulduğu zaman göstərilir.

9. Ərazinin çirklənməsi:

Vətən müharibəsi və eləcə də antiterror əməliyyatının başa çatmasından sonra, Prezident İlham Əliyevin də dediyi kimi, “Yenidənqurma prosesi minalardan təmizlənmə ilə başlayır”. Çünki 30 ilə yaxın müddətdə işğal olunmuş ərazilərimizdə məskunlaşan yadelli düşmənlər bütün əraziləri minalamışdır. Hətta ətraf mühiti inanılmaz dərəcədə dağıntılara (səs, qum, daş, toz və.s kimi) məruz qoyaraq onun dəhşətli şəkildə çirklənməsinə şərait də yaratmışdı.

Azərbaycanın dünyada əsas müharibə ocaqları olmuş ölkələrlə və onlarda aparılan rekonstruksiya işləri ilə fərqini göstərən bir sıra başqa mexanizmlər də mövcuddur. Müharibələrdən sonra Suriya, İraq və Bosniyadakı yenidənqurma prosesləri mürəkkəb və çətin şəraitdə aparılmış, hər birinin özünəməxsus şərait, maneələr və yanaşmalar toplusu mövcud olmuşdur [8].

Qarabağda aparılan yenidənqurma siyasəti ilə Suriya, İraq və Bosniyada aparılan yenidənqurma işləri arasındakı əsas fərqliliklərin səbəbləri:

1. Resurs sərvəti:

Azərbaycan əhəmiyyətli enerji ehtiyatlarına, xüsusən də neft və təbii qaza malikdir. Enerji sektorundan əldə edilən gəlir yenidənqurma səylərinin və ümumi iqtisadi inkişafın maliyyələşdirilməsində həlledici rol oynamaqdadır. Azərbaycan yeraltı sərvətlərinin Rusiya-Ukrayna müharibəsinin gedişatında dünyaya ixracını daha da artırmışdır və bu da hal-hazırda aparılan yenidənqurma siyasətinin daha əsaslı və tez şəkildə olmasına yön verməkdədir. Suriya, İraq, Bosniya kimi ölkələrin təbii yeraltı sərvətlərinin rəngarəngliyi ilə Azərbaycanın sərvətləri eyni səviyyədə olmadığından, həmin ölkələrin yenidənqurma səyləri beynəlxalq yardım və kreditlərdən daha çox asılıdır. Bu da orada olan bu prosesin həllini gecikdirməkdədir.

2. Münaqişə dinamikası:

Azərbaycan 1990-cı illərdə Ermənistanla Dağlıq Qarabağ münaqişəsi ilə üzləşdi, nəticədə ərazilər itirildi və əhali də köçkün düşdü. Münaqişənin 2020-ci ildə həlli zərər çəkmiş rayonlarda yenidənqurma və inkişaf üçün yeni imkanlar açdı və dərhal yenidənqurmaya başlanıldı. Lakin Suriya, İraq və Bosniya kimi ölkələr siyasi, etnik və dini ölçülərə malik daxili münaqişələrlə üzləşmiş, mürəkkəb və uzun sürən humanitar böhranlar inteqrasiya və yenidənqurmanın gecikməsinə səbəb olmuşdur.

3. Güc mərkəzlərinin aktiv rolu:

Yaxın Şərq və Balkanların coğrafi mürəkkəbliyi isə Suriya, İraq və Bosniyada beynəlxalq müdaxilənin dinamikasına təsir göstərib. Müxtəlif geosiyasi maraqlar və regional güc mərkəzləri yenidənqurma proseslərini öz istəkləri çərçivəsində formalaşdırmış, hətta həllinə daha çox maneə törətmişdir. Uzaq olmayan keçmişdə siyasi sabitsizlik səbəbindən həmin ərazilər güclü dövlətlər tərəfindən talana məruz qalmışdır. Amerikan ordusu tərəfindən Suriya və İraqdan tonlarla qızılın daşınması bunun təzahürü kimi göstərilə bilər.

4. Maliyyə imkanlarının müxtəlifliyi:

Ölkəmiz turizm, kənd təsərrüfatı və texnologiya kimi qeyri-neft sektorlarına investisiya yatıraraq, iqtisadiyyatını enerji sektorundan kənarda da şaxələndirmək üçün səylər göstərməkdə davam edir.

Suriya, İraq, Bosniya öz iqtisadiyyatlarını şaxələndirmək üçün problemlərlə üzləşirlər və onların yenidənqurma səyləri çox vaxt əsas infrastrukturun yenidən qurulmasına və əsas xidmətlərin bərpasına yönəlmişdir [9]. İqtisadi və diplomatik təşəbbüslər xarici sərmayələrin cəlb edilməsi və maddi dəstək üçün həlledici rol oynamışdır. Yalnızca göstərilən yardımlar deyil, eyni zamanda xarici investorların Qarabağda yatırımlara maraq göstərməsi də Azərbaycana məxsus yenidənqurma siyasətini təşkil edən amillər sırasında çəkilə bilər. Lakin adlarını çəkdiyimiz ölkələrdə xarici investorların marağı çox aşağı həddə qalmaqda hələ də davam edir.

Hər bir ölkə özünəməxsus çağırışlar və imkanlarla üzləşdiyi halda, Azərbaycanda Qarabağın yenidən qurulması onun resurs zənginliyi, postsovet dövründən keçid dövrü, spesifik münaqişə dinamikası beynəlxalq əlaqələr və iqtisadiyyatının şaxələndirilməsi səyləri ilə formalaşıb. Dağlıq Qarabağ münaqişəsinin son həlli həm də Azərbaycanda bundan zərər çəkmiş rayonlarda inkişaf və yenidənqurma üçün birdəfəlik və sabit yeni imkanlar yaratdı. Dünyanın hər tərəfində yenidənqurma prosesləri siyasi qeyri-sabitlik, təhlükəsizlik problemləri, iqtisadi çətinliklər və beynəlxalq dəstəyə ehtiyac kimi problemlərlə üzləşməkdə davam edir. Bundan əlavə, yenidənqurmanın uğuru çox vaxt

təsirə məruz qalan ölkələrin siyasi sabitliyə nail olmaq, inklüziv idarəetmə ilə məşğul olmaq və münaqişələrin əsas səbəblərini həll etmək qabiliyyətindən də asılıdır [10]. Beynəlxalq ictimaiyyətin yardım, təcrübə və diplomatik dəstəyin təmin edilməsindəki rolu müharibədən sonra cəmiyyətlərin davamlı bərpası üçün çox vacibdir.

Müharibədən qaynaqlanan sosial problemlərin mürəkkəb şəbəkəsi yenidənqurma prosesinə nəzərəçarpacaq dərəcədə təsir göstərir, çox vaxt gecikmələrə və çətinliklərə səbəb olur. Bununla belə, yenidənqurma prosesini sürətləndirə və icmalara öz məqsədlərinə daha tez çatmağa kömək edən strateji yanaşmalar da təklif edə bilərik:

1. İlkin sosial infrastruktur investisiyaları:

Yenidənqurma prosesinin başlanğıcında sosial infrastruktura investisiya qoyuluşu vacibdir. Bura əsas xidmətlərin sürətlə bərpası və normallıq hissini aşılamaq üçün məktəblərin, səhiyyə müəssisələrinin və icma mərkəzlərinin yenidən qurulmasına üstünlük verilməsi birincilik xarakteri daşıyır.

2. İnteqrasiya edilmiş yanaşma:

Sosial, iqtisadi və infrastruktur elementlərini eyni zamanda nəzərə alan inteqrasiya olunmuş yanaşmanın qəbul edilməsi əsas məsələdir. Bütöv və bir-biri ilə əlaqəli inkişaf planları yenidənqurma prosesinin cəmiyyətin çoxşaxəli ehtiyaclarına cavab verməsini təmin edir, tərəqqini sürətləndirir və daha möhkəm təməl yaradır.

3. Yerli bacarıqların artırılması:

Yerli icmaların qərar qəbuletmə prosesinə cəlb edilməsi, təlimlərin keçirilməsi və yerli rəhbərliyin təşviq edilməsi yolu ilə onların səlahiyyətlərinin artırılması yenidənqurma prosesini sürətləndirir. Yerli iştirak layihələrin icma ehtiyaclarına uyğun olmasını və səmərəli şəkildə həyata keçirilməsini təmin edir

4. Sürətli iş yaratma:

Müharibədən sonrakı şəraitdə işsizlik aktual sosial problemdir. Xüsusilə infrastrukturun inkişafı kimi sektorlarda iş imkanları yaradan layihələrin həyata keçirilməsi iqtisadiyyatın bərpasını sürətləndirir və icmalara həyatlarını yenidən qurmaq üçün vasitələr təqdim edir.

5. Psixoloji dəstək proqramları:

Müharibənin psixoloji zərərini tanımaq və aradan qaldırmaq çox vacibdir. Psixi sağlamlıq və travmaya dəstək proqramlarının həyata keçirilməsini sürətli şəkildə izləmək fərdlərə münaqişənin nəticələrinin öhdəsindən gəlməyə kömək edir, onlara yenidənqurma prosesində fəal iştirak etməyə imkan verir.

6. İnklüziv siyasətlər:

Marginal qrupların, qadınların və azlıqların ehtiyaclarını nəzərə alan inklüziv siyasətlərin həyata keçirilməsi sosial birliyi gücləndirir. İnklüzivlik yenidənqurmanın faydalarının ədalətli şəkildə bölüşdürülməsini təmin edir, gələcək qeyri-bərabərliyin qarşısını alır və daha vahid icmanı təşviq edir.

7. Beynəlxalq əməkdaşlıq:

Qlobal əməkdaşlıq və dəstək yenidənqurma prosesinin sürətləndirilməsində mühüm rol oynayır. Beynəlxalq təşkilatlar, donor ölkələr və qeyri-hökumət təşkilatları tərəqqini sürətləndirərək yenidənqurma səylərini gücləndirmək üçün təcrübə, maliyyə və resurslar təmin edə bilərlər.

8. Texnologiyadan istifadə:

Texnoloji həllərin daxil edilməsi yenidənqurma işlərinin səmərəliliyini artıra bilər. Buraya layihənin idarə edilməsi üçün rəqəmsal platformalardan istifadə, şəhərsalma üçün geoməkan texnologiyasından istifadə və icmanın iştirakı üçün kommunikasiya vasitələrindən istifadə daxildir.

9. Monitorinq və qiymətləndirmə mexanizmləri:

Güclü monitorinq və qiymətləndirmə mexanizmlərinin yaradılması tərəqqinin real vaxt rejimində qiymətləndirilməsinə imkan verir və düzəlişlər tələb edə bilən sahələri müəyyən edir. Bu təkrarlanan proses resursların bölüşdürülməsini optimallaşdırmağa kömək edir və yenidənqurma məqsədlərinə daha səmərəli nail olunmasını təmin edir.

Bu strategiyalar yenidənqurma prosesinin sürətlənməsinə töhfə verə bilsə də, hər bir icmanın unikal olduğunu və həll yollarının onların xüsusi ehtiyaclarına və kontekstinə uyğunlaşdırılmalı

olduğunu qəbul etmək vacibdir. Bundan əlavə, bütün maraqlı tərəflərin davamlı öhdəlikləri, uyğunlaşa bilən planlaşdırma və çeviklik sürətləndirilmiş yenidənqurma səylərinin uğurunu təmin etmək üçün mühüm elementlərdir.

Münaqişədən sonrakı yenidənqurma ədəbiyyatının böyük əksəriyyəti sülh quruculuğu əməliyyatlarının təhlükəsizlik və siyasi ölçülərinə yönəlmişdir. Əksər tədqiqatlar tarix, siyasi elm və ictimai siyasət fənləri ilə məhdudlaşır. Bir analitikin dediyi kimi, yenidənqurma ilə məşğul olan tədqiqatların əksəriyyəti iqtisadi məsələləri “yalnız tangensial və ya sonradan düşünülmüş şəkildə və az iqtisadi ciddilik, spesifiklik və ya əhatəlilik ilə” həll edir [11]. Təbii ki, heç kim müharibədən zərər çəkmiş ölkələrin xarici yardıma və maliyyəyə ehtiyacını inkar etmir. Münaqişələr müddəti və intensivliyi ilə fərqlənsə də, əksər hallarda onların təsiri insan, sosial və fiziki kapital baxımından dağıdıcı olur [12]. Onların nəticələrinə aşağıdakılar aid edilə bilər:

• insan inkişafı və insan təhlükəsizliyi göstəricilərinin pisləşməsi (məsələn, gözlənilən ömür uzunluğu, uşaq ölümü, səhiyyə və təhsil xidmətlərinə çıxış);

•infrastrukturun dağılması (məsələn, nəqliyyat, rabitə, su və enerji infrastrukturu və mənzil fondu);

• beyin axınına səbəb olan daxili əhalinin yerdəyişməsi və mühacirəti;

• sosial yardıma ehtiyacı olan insanların (məsələn, əlillər, qocalar, uşaqlar, məcburi köçkünlər və müharibə veteranları) sayının kəskin artması;

• iqtisadi tənəzzül bəzən müharibədən əvvəlki səviyyədən xeyli aşağı;

• yüksək hərbi xərclər (sosial xərclər hesabına) və müharibə dövründə cüzi gəlirlər nəticəsində yaranan böyük fiskal kəsirlər;

•pul çap etməklə müharibənin maliyyələşdirilməsi nəticəsində inflyasiyanın artması;

• investisiya edilmiş aktivlərin ölkəni tərk etməsi;

• müharibə dövründə ödənilməmiş borcların artması;

• xarici ticarətin pozulması .

Münaqişədən sonra Qarabağda iqtisadiyyatın bərpasına dair ədəbiyyat hər bir yenidənqurma səyinin unikal olması fərziyyəsini ümumi əsas kimi bölüşür. Müharibədən sonrakı hər bir vəziyyət aşağıdakı amillərə görə fərqlənir:

1) münaqişənin başvermə səbəbləri və onun həlli yolu;

2) ölkənin bütün ərazisində hərbi əməliyyatların tam (və ya uzunmüddətli) formada dayandırılması;

3)ölkənin ilkin iqtisadi şəraiti və inkişaf səviyyəsi, nizamlanmaya beynəlxalq siyasi dəstəyin həcmi;

4) ölkədəki donor marağı .

**Nəticə**

Yenidənqurma işləri hər bir alıcı ölkənin xüsusi ehtiyaclarına uyğunlaşdırılmalıdır. Yenidənqurma prosesinin sürətli və effektiv şəkildə həyata keçirilməsi üçün strateji yanaşmaların tətbiqi xüsusi əhəmiyyət kəsb edir. İlkin sosial infrastruktur investisiyaları, inteqrasiya edilmiş yanaşma, yerli bacarıqların artırılması, sürətli iş yaratma, psixoloji dəstək proqramları və digər faktorlar isə bu prosesi dəstəkləyir. Bu yanaşmaların tətbiqi yenidənqurma prosesini sürətləndirir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Fischer, Martina. 2004. *Recovering from Violent Conflict: Regeneration and (Re-) Integration as Elements of Peacebuilding.*
2. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı, səh.7
3. Böyük Qayıdışın İqtisadiyyatı, UNECEkspert Elmi publisistik jurnalı, səh.14
4. Böyük qayıdış: Prezident İlham Əliyevin işğaldan azad edilmiş rayonlara tarixi səfərləri, Şərq-Qərb, 2021, səh.25
5. https://respublika-news.az/news/boyuk-qayidis-proqrami-ugurla-icra-edilir

6. Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu, Bakı, 2022, səh.103-104

7. Coyne, Christopher J. 2007. Reconstruction and Reconciliation: What’s Economics Got to Do With It? *The Whitehead Journal of Diplomacy and International Relations* 8, no. 1: 1-15.

8. New York: Center on International Cooperation, New York University. del Castillo, page 20, Graciana. 2008.

9. Dünya Bankı 1998, 15-6, Dünya Bankı 1999, 2.7

10. Humphreys, Macartan. 2003. *Economics and Violent Conflict*. Cambridge, MA: Harvard School of Public Health, Conflict Prevention Initiative, Program on Humanitarian Policy and Conflict.

11. New York: Center on International Cooperation, New York University. del Castillo, page 9-12, Graciana, 2008.

12. Carnegie Middle East Center, The Politics of Post-Conflict Reconstruction, page 14, September 2018.

**Rəyçi: f.e.d., prof. Rəna Mirzəzadə**